**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**TURAL BƏHRUZ OĞLU HACIYEV**

# RUSİYA FEDERASİYASI VƏ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNDƏ ADAM OĞURLUĞUNA GÖRƏ MƏSULİYYƏT (KOMPARATIVISTIK TƏDQIQAT)

**İxtisas: 5611.01 – Cinayət hüququ və kriminologiya;**
**cəza-icra hüququ**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

## AVTOREFERATI

**BAKI -2014**

Dissertasiya işi Rusiya Federasiyası Xarici İçlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) «Cinayət hüququ, cinayət prosesi və kriminalistika» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Kuznetsov Aleksandr Pavloviç
RF-in əməkdar elm xadimi,
RF-in əməkdar hüquqşünası,
hüquq elmləri doktoru, professor

**Rəsmi opponentlər:** Komissarov Vladimir Serqeyeviç
hüquq elmləri doktoru, professor

Səməndərov Firudin Yusif oğlu hüquq elmləri doktoru, professor

**Aparıcı təşkilat:** AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsi

Dissertasiya işinin müdafiəsi « 31 » « 10 » 2014-cü il tarixdə saat «____» Bakı Dövlət Universiteti nəzdindəki B/FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «________» «__________» 2014-cü il tarixdə göndərilmişdir.

**B/FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru** **Ə.Q. Məmmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Şəxsiyyətin hüquqlarının müdafiəsi günümüzün ən mühüm problemlərindən biridir. Rusiya Federasiyasının Konstitusiyası insanı, onun hüquq və azadlıqlarını ən yüksək dəyər elan edərək, dövlətin insan hüquq və azadlıqlarını tanımaq, onlara riayət etmək və qorumaq vəzifəsi barədə son dərəcə vacib fikri təsbit etmişdir (m.2). Analoji tələb Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit olunmuşdur. Konstitusiyanın 12-ci maddəsində göstərilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Bu fikirlər istənilən müasir cəmiyyət üzvünün ayrılmaz hüququ kimi bütövlükdə insan azadlığına şamil edilir.

Hətta tövsifedici əlamətlər olmadan, adam oğurluğu, demək olar ki, bütün ölkələrdə ağır və xüsusilə ağır cinayətlərə aid edilir, bu da həmin əməlin olduqca yüksək ictimai təhlükəlilik dərəcəsini əks etdirir.

Həm Rusiya Federasiyasının, həm də Azərbaycan Respublikasının istintaq və məhkəmə praktikasında müvafiq olaraq RF CM-nin 126-cı maddəsinin və AR CM-nin 144-cü maddəsinin tətbiqi ilə bağlı problemlər mövcuddur. Çətinliklər əsasən adam oğurluğu anlayışının, həmin cinayətin tərkibinin əlamətlərinin müəyyən edilməsi, adam oğurluğunun tövsifi, onun oxşar cinayət tərkiblərindən fərqləndirilməsi və s. zamanı yaranır. Ən böyük çətinliklər məhz törədilmiş əməlin cinayət-hüquqi qiymətləndirilməsindən ibarətdir. Belə ki, cinayətin hallarının sübuta yetirilməsi, cinayətlərin açılmasının və araşdırılmasının, onların törədilməsində təqsirli şəxslərin ifşa edilməsinin digər məsələlərinin həlli bundan asılıdır.

Həm qanunun özünün təkmilləşdirilməsinə, həm də hüquq-mühafizə və məhkəmə orqanlarının praktiki fəaliyyətində onun daha effektiv tətbiqinə yönəldilən tövsiyələrin, habelə adam oğurluğu ilə bağlı cinayətkar fəaliyyətin qarşısının alınması üzrə tədbirlərin işlənib hazırlanması zərurəti yuxarıda göstərilən hallarla yanaşı, tədqiqatın mövzusunun aktuallığını müəyyən edir və onun seçilməsinə səbəb olur.

**Problemin elmi cəhətdən işlənmə dərəcəsi.** Adam oğurluğuna görə məsuliyyət məsələləri qanunverici tərəfindən xüsusi cinayət-hüquq normasına ayrıldıqdan dərhal sonra elmi tədqiqatların mövzusuna çevrilmişdir. Ən əhəmiyyətli işlərdən N.İ.Vetrovun, A.Q.Volevodzun, L.D.Qauxmanın, M.P.Juravlyovun, B.V.Zdravomıslovun, L.V.İnoqamova-Heqayın, V.S.Komissarovun, A.İ.Korobeyevin, L.L.Kruqlikovun, N.F.Kuznetsovanın, Y.İ.Lyapunovun, S.V.Maksimovun, A.V.Naumovun,



A.İ.Raroqun, Ş.T.Səmədovanın, V.D.Filimonovun, A.M.Yakovlevanın, İ.M.Tyajkovanın və digər müəlliflərin elmi əsərlərini qeyd etmək lazımdır.

Araşdırılan mövzuya yaxın mövzular üzrə hüquq elmləri namizədi elmi dərəcəsinin alınması üçün N.E.Martınenko (1994), M.V.Filin (2000), D.A.Sitnikov (2001), İ.A.Mironov (2002), Y.V.Yevsteyeva (2002), A.V.Dontsov (2003), S.N.Hacıyev (2005), D.Y.Zaydiyeva (2006), Y.A.Maraxtanova (2006), O.V.Novikova (2007), İ.P.Parfinenko (2007) və X.Nazix (2008) tərəfindən dissertasiyalar müdafiə olunmuşdur: Bundan başqa, H.V.Həbibova 2006-cı ildə Azərbaycan Respublikasının materialları əsasında adam oğurluğu problemlərinə həsr olunmuş dissertasiya müdafiə etmişdir.

Lakin, qeyd edilən mövzunun kifayət qədər işlənməsi ilə yanaşı, adam oğurluğunun kriminoloji və cinayət-hüquq problemlərinə aid bir sıra məsələlər hələ də tədqiq olunmamışdır. Həm Rusiya Federasiyasının, həm də Azərbaycan Respublikasının qanunvericiliyində oxşar olan xüsusilə əhəmiyyətli problemləri məhz müqayisəli-hüquqi aspektlərdə araşdırmaq məqsədəuyğun olardı. Bu, hər iki dövlətin cinayət-hüquq nəzəriyyəsini və hüququn tətbiqi praktikasını zənginləşdirməyə imkan verər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi Rusiya Federasiyası və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən adam oğurluğuna görə cinayət məsuliyyətinə aid məsələlərin kompleks müqayisəli-hüquqi tədqiqatının aparılması və bunun əsasında həmin cinayətlərə görə məsuliyyət haqqında qanunvericiliyin, onun tətbiqi praktikasının təkmilləşdirilməsi üzrə təkliflərin, habelə adam oğurluğunun profilaktikası üzrə təkliflərin işlənib hazırlanmasıdır.

Qeyd edilən məqsəd **aşağıdakı məsələlərin** qoyulması və həll olunmasının zəruriliyini öncədən müəyyən edir:

- “adam oğurluğu” anlayışının tərifini dəqiqləşdirmək;
- insan azadlığının qorunması sahəsində münasibətləri tənzimləyən beynəlxalq hüquq normalarının təhlilini aparmaq;
- adam oğurluğuna görə məsuliyyət haqqında xarici ölkələrin cinayət qanunvericiliyinin sistemləşdirilmiş təhlilini həyata keçirmək;
- Rusiya Federasiyası və Azərbaycan Respublikasının qanunvericiliyinə və hüququn tətbiqi praktikasına uyğun olaraq, adam oğrusunun kriminoloji portretini işləyib hazırlamaq;
- adam oğurluğunun qarşısının alınması üzrə profilaktik tədbirlər sistemini işləyib hazırlamaq;

- “adam oğurluğu” cinayətinin tərkibinin RF CM və AR CM-də təsbit olunmuş əlamətlərini təhlil etmək və adam oğurluğunun tövsifi problemlərini üzə çıxarmaq;

- adam oğurluğunu oxşar cinayət tərkiblərindən qanunvericiliklə daha dəqiq fərqləndirilməsini təklif etmək;

- oğurlanmış adamı könüllü azad edən şəxsin cinayət məsuliyyətindən azad edilməsi haqqında qaydaya vaxt məhdudiyyətinin qoyulmasının qanunvericilik mexanizmini işləyib hazırlamaq;

- adam oğurluğuna görə cinayət məsuliyyəti normasının istintaq və məhkəmə praktikasında tətbiqi üzrə tövsiyələri və bu normanın qanunvericilik baxımından təkmilləşdirilməsi üzrə təklifləri işləyib hazırlamaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın **obyekti** şəxsiyyətin məkanda hərəkət azadlığı hüququnu təmin edən ictimai münasibətlərdir.

Dissertasiya tədqiqatının **predmetini** adam oğurluğuna görə cinayət məsuliyyətini müəyyən edən cinayət-hüquq normaları, müvafiq hüquq-mühafizə və məhkəmə orqanlarının hüququn tətbiqi üzrə və profilaktik fəaliyyəti təşkil edir.

**Tədqiqatın metodologiya və metodikası.** Tədqiqatın metodoloji əsasını ümumi idrak metodu – materialist dialektika; ümumi elmi metodlar – sistemli, tarixi, məntiqi; xüsusi elmi metodlar – müqayisəli-hüquqi, doqmatik, statistik metodlar, bir sıra sosioloji metodlar (sorğu, müsahibə, modelləşdirmə) və s. təşkil etmişdir.

Tədqiqatın normativ əsasını beynəlxalq normativ aktlar, Rusiya Federasiyasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiyası, Rusiya Federasiyasının 1996-cı il tarixli Cinayət Məcəlləsi, Azərbaycan Respublikasının 1999-cu il tarixli Cinayət Məcəlləsi, həmin ölkələrin qüvvədə olan qanunvericiliyi və qanun qüvvəli normativ hüquqi aktları təşkil edir.

**Tədqiqatın nəzəri əsasını** ölkə alimlərinin və xarici alimlərin – M.İ.Bajanovun, S.V.Borodinin, A.S.Borşevin, A.V.Brilliantovun, İ.V.Vəliyevin, L.D.Qauxmanın, M.L.Qolubevanın, P.S.Dagelin, A.İ.Dolqovanın, V.N.Dodonovun, A.E.Jalinskinin, İ.E.Zveçarovskinin, B.V.Zdravomıslovun, İ.İ.Karpetsin, İ.A.Kosarevanın, V.N.Kudryavtsevin, A.P.Kuznetsovun, Y.İ.Lyapunovun, S.A.Margiyevin, N.N.Marşakovanın, Q.M.Minkovsjinin, P.N.Pançenkonun, T.V.Pinkeviçin, A.A.Piontkovskinin, F.M.Reşetnikovun, A.B.Saxarovun, L.V.Serdyukun, A.N.Sumaçevin, N.S.Taqantsevin, Y.N.Trikozun, R.D.Şarapovun, M.D.Şarqorodskinin, O.V.Şipunovun, S.P.Şerbanın, V.Y.Eminovun və digər hüquqşünas alimlərin cinayət hüququ, kriminologiya sahəsində elmi işləri təşkil



etmişdir. Habelə fəlsəfə, sosiologiya və digər elmi sahələri üzrə işlərdən istifadə edilmişdir.

**Tədqiqatın empirik bazasını** Rusiya Federasiyası və Azərbaycan Respublikasının dərc olunmuş məhkəmə praktikası, Rusiyada – 112, Azərbaycanda isə 89 istintaqı aparılmış və araşdırılmış, o cümlədən xitam verilmiş cinayət işlərinin tədqiqinin nəticələri, 144 müstəntiq və 98 hakimlə keçirilən sorğuların ümumiləşdirilmiş nəticələri təşkil etmişdir. Cinayət işlərinin tədqiqi və praktiki işçilərin sorğusu həm Rusiya Federasiyasının ərazisində (Moskva şəhərində, Moskva, Tula, Voronej, Tambov, Rostov vilayətlərində, Krasnodar diyarında), həm də Azərbaycan Respublikasında aparılmışdır. İşdə habelə digər müəlliflərin apardığı tədqiqatların nəticələrindən istifadə edilmişdir.

**İşin elmi yeniliyi** ondan ibarətdir ki, bu iş, adam oğurluğuna görə məsuliyyətin kriminoloji və cinayət-hüquqi problemlərinin Rusiya Federasiyası və Azərbaycan Respublikasının qanunvericiliyinə əsaslanaraq müqayisəli-hüquqi aspektdə araşdırıldığı ilk işlərdən biridir. İşdə adam oğurluğunun doktrinal anlayışı dəqiqləşdirilib; Rusiya Federasiyasında və Azərbaycan Respublikasında adam oğurluğunun qarşısının alınması üzrə kriminoloji tövsiyələr işlənib hazırlanıb; RF CM-nin 126-cı və AR CM-nin 144-cü maddələri ilə nəzərdə tutulan cinayətin tərkibinin müqayisəli-hüquqi təhlili həyata keçirilib; oxşar və fərqli əlamətlər müəyyən edilib, zərərçəkmiş şəxsin və cinayətin obyektiv cəhətinin xüsusiyyətlərini xarakterizə edən tövsifedici və xüsusilə tövsifedici əlamətlərin dəyişdirilməsi üzrə təkliflər işlənib hazırlanıb; adam oğurluğunun oxşar cinayət tərkiblərindən fərqləndirilməsi həyata keçirilib.

**Müdafiəyə çıxarılan müddəalar:**

1. Adam oğurluğunun müəllif tərifi: adam oğurluğu – insanın iradəsinin əleyhinə yaxud iradəsindən kənar onun şəxsi fiziki azadlığının məhdudlaşdırılmasına yönəldilən, onun daimi və ya müvəqqəti olduğu və hərəkət etdiyi yerdə ələ keçirilməsi (götürülməsi) və sonradan başqa yerdə saxlanılması yolu ilə qəsdən törədilən qanunazidd hərəkətlərdir.

2. Azərbaycan Respublikasında adam oğrusunun şəxsiyyətinin kriminoloji xarakteristikası aşağıdakı əlamətlərdən ibarətdir: Azərbaycan Respublikasının vətəndaşı olan, işləməyən və təhsil almayan, orta təhsilli, keçmişin qalıqlarını ehtiva edən milli adət-ənənələrdən azad olmayan, tamah niyyəti olan, məhkum olunmamış, cinayəti iştirakçılıqla törədən, 20-35 yaşlarında kişi cinsindən şəxs. Rusiya Federasiyasında cinayətkarın şəxsiyyətinin əsas fərqi ondan ibarətdir ki, Rusiyada “gəlinin qaçırılması” motivi, demək olar ki, yoxdur.

3. Şəxsiyyətin fiziki azadlığına qəsdlə bağlı cinayətlərin qarşısının alınmasına yönəldilən ümumi və xüsusi xarakterli, elmi cəhətdən əsaslandırılmış təşkilati-praktiki tədbirlər kompleksi təklif olunur (avtoreferatın əsas məzmununda ətraflı baxın).

4. Müasir beynəlxalq hüququn və xarici cinayət qanunvericiliyinin öyrənilməsi Rusiya Federasiyası və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun (RF CM-nin 126 m. və AR CM-nin 144 m.) cinayətin tərkibinin kriminal yaradan əlamətlərinin dəqiqləşdirilməsi üzrə təkliflərin nəzəri səviyyədə işlənib hazırlanmasına imkan yaratmış və aşağıdakılara nail olunmuşdur: cinayətin tərkibinin əsas əlamətləri konkretləşdirilib (başqa canlı insanın fiziki azadlığını və toxunulmazlığını təmin edən ictimai münasibətləri cinayətin əsas bilavasitə obyekti hesab etmək təklif olunub; obyektiv cəhətdən əməl aktiv hərəkətlərlə xarakterizə olunur; cinayətin subyekti ümumidir; subyektiv tərəfdən əməl yalnız birbaşa niyyətlə xarakterizə olunur); tövsifedici əlamətlərin (şəxsin öz qulluq mövqeyindən istifadə etməklə cinayət törətməsi; aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsə qarşı cinayətin törədilməsi; sifarişlə törədilmiş (tövsifedici); təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxsə qarşı cinayətin törədilməsi (xüsusilə tövsifedici) siyahısının genişləndirilməsi zərurəti əsaslandırılıb.

5. Adam oğurluğunun oxşar cinayət tərkiblərindən qanunvericiliklə daha dəqiq fərqləndirilməsi təklif olunub: adam oğurluğuna oxşar insan alveri cinayətlərin real məcmusu qaydaları üzrə tövsif edilir; qeyri-qanuni azadlıqdan məhrum etmənin adam oğurluğundan fərqi ondan ibarətdir ki, qeyri-qanuni azadlıqdan məhrum etmə də adamın zorla saxlanılmasını nəzərdə tutur, lakin yalnız daimi və ya müvəqqəti olduğu yerdə; girovların götürülməsi zamanı da vətəndaşların şəxsi azadlığına ziyan vurulur, lakin bu halda şəxsi azadlıq əsas obyekt kimi deyil, əlavə obyekt kimi çıxış edir. Adam oğurluğu ilə girov götürmə arasındakı əsas fərq onların məqsədlərinin xüsusiyyətlərindən ibarətdir. Adam oğurluğunun məqsədi bu tərkibin subyektiv tərəfinin mütləq əlaməti deyil, girovun götürülməsi isə xüsusi məqsədin olması ilə xarakterizə olunur.

6. Adam oğurluğunu törətmiş, lakin törətdiyi andan etibarən 24 saat ərzində oğurlanmış adamı könüllü azad etmiş və əməllərində başqa cinayətin tərkibi olmayan şəxsin cinayət məsuliyyətindən azad edilməsinin mümkünlüyü barədə təklif hazırlanmışdır.

7. Nəzəri və praktiki cəhətdən əsaslandırılması nəzərə alınaraq, AR CM-nin 144-cü maddəsinin yeni redaksiyası təklif olunmuşdur:

144.1. Adam oğurluğu, yəni insanın iradəsinin əleyhinə yaxud iradəsindən kənar onun şəxsi fiziki azadlığının məhdudlaşdırılmasına yönəldilən, onun daimi və ya müvəqqəti olduğu və hərəkət etdiyi yerdə ələ keçirilməsi (götürülməsi) və sonradan başqa yerdə saxlanılması yolu ilə qəsdən törədilən qanunazidd hərəkətlər, –

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

144.2. Eyni əməllər:
2.1. iki və ya daha çox şəxs barəsində törədildikdə;
2.2. qulluq mövqeyindən və ya ictimai borcun yerinə yetirilməsindən istifadə etməklə törədildikdə;
2.3. aşkar surətdə yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə;
2.4. təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə;
2.5. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;
2.6. zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə;
2.7. silahdan yaxud silah qismində istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə;
2.8. tamah məqsədi ilə və ya sifarişlə törədildikdə —

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

144.3. Bu Məcəllənin 144.1 və 144.2-ci maddələrində göstərilən əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə yaxud təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda – on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd.** Bu maddə ilə nəzərdə tutulan əməli törətmiş şəxs cinayəti törətdiyi andan etibarən 24 saat ərzində oğurlanmış adamı könüllü azad etdikdə və onun əməllərində başqa cinayətin tərkibi olmadıqda, məcəllənin bu maddəsi üzrə cinayət məsuliyyətindən azad olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** onun nəticələrinin RF və AR-in Cinayət Məcəlləsinin gələcəkdə təkmilləşdirilməsi prosesində, Rusiya Federasiyası və Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun müvafiq izahlarının hazırlanması, Cinayət hüququnun xüsusi hissəsinin "Şəxsiyyətə qarşı cinayətlər" mövzusu üzrə tədrisi zamanı istifadə olunmasının mümkünlüyündən ibarətdir.

Aparılan tədqiqatın tətbiqi əhəmiyyəti onun adam oğurluğuna görə məsuliyyəti müəyyən edən cinayət-hüquqi normanın düzgün və eyni cür tətbiqinin təmin olunması, həm Rusiya Federasiyasının, həm də Azərbaycan Respublikasının istintaq-məhkəmə praktikasında adam oğurluğunun tövsifi

məsələləri üzrə metodiki tövsiyələrin işlənib hazırlanması zamanı qeyd edilən normanın yanlış tətbiqi ilə bağlı nöqsanların aradan qaldırılması və bu əməlim oxşar tərkiblərdən ayrılması ilə şərtlənir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiyada olan əsas müddəalar, müəllifin dərc edilmiş elmi əsərlərində geniş şərh olunmuşdur. Tədqiqatın müəyyən aspektləri elmi-praktik konfranslardakı məruzə və çıxışlarda öz əksini tapmışdır. Nəticələr və tövsiyələrdən Rusiya Federasiyası Xarici İçlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) tədris prosesində "Cinayət hüququ" və "Kriminologiya" kurslarının tədrisi zamanı istifadə olunur.

**Dissertasiyanın strukturu** elmi tədqiqatın qurulması məntiqinə uyğundur, məqsəd və vəzifələrlə müəyyən olunur və giriş, səkkiz paraqrafdan ibarət üç fəsil, xülasə, biblioqrafiya və əlavədən ibarətdir.



## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, onun obyekti və predmeti, məqsəd və vəzifələri, metodika və metodologiyası müəyyən edilir, tədqiq edilən mövzunun elmi yeniliyi və praktiki əhəmiyyəti sübuta yetirilir, nəzəri və empirik əsasları açıqlanır, müdafiəyə çıxarılan əsas müddəalar dürüst ifadə olunur, aparılan tədqiqat işinin aprobasiyasının nəticələri və onun strukturu haqqında məlumat verilir.

Birinci fəsil – **"Adam oğurluğuna görə cinayət məsuliyyətinin nəzəri və kriminoloji əsasları"** – iki paraqrafdan ibarətdir.

**"Adam oğurluğu anlayışı"** adlı birinci paraqraf həm Rusiya Federasiyasında, həm də Azərbaycan Respublikasında mövcud olan nəzəri baxışların tədqiqinə və bunun əsasında adam oğurluğu anlayışının işlənməsinə və bir sosial-neqativ hal kimi təqdiminə həsr olunmuşdur.

İstənilən hüquq, o cümlədən də azadlıq hüququ dünya birliyinin işləyib hazırladığı standart, prinsip və normalara uyğun qorunmalı və müdafiə olunmalıdır. Ölkələrin bu birliyə onun bütün dəyərlərini dəstəkləyən tam hüquqlu üzv kimi daxil olması qeyd edilən tələblərin tam və qeyd-şərtsiz qəbul edilməsini və onlara riayət olunmasını nəzərdə tutur. Hazırda dünya birliyi tərəfindən insan hüquqlarını təsbit edən iyirmidən artıq beynəlxalq hüquqi akt qəbul olunmuşdur. Onlardan: İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya 4 noyabr 1950-ci il (ETS № 50); Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt 16 dekabr 1966-cı il; Müstəqil Dövlətlər Birliyinin 26 may 1995-ci il tarixli İnsan hüquqları və əsas azadlıqları haqqında Konvensiyası; Müharibə vaxtı mülki əhalinin müdafiəsi haqqında 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyası; Hava gəmilərinin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında Konvensiya (Haaqa, 16 dekabr 1970-ci il); Terrorizmin qarşısının alınması haqqında Avropa Şurasının Konvensiyası (Varşava, 16 may 2005-ci il) və s.

Birləşmiş Millətlər Təşkilatı 18 dekabr 1992-ci ildə Bütün Şəxslərin Məcburi Yoxaçıxmalardan Müdafiəsinə dair Bəyannamə qəbul etmişdir. Bəyannamədə xüsusilə qeyd olunur ki, istənilən məcburi yoxaçıxma aktı insan ləyaqətinin təhqir edilməsi, bütün məcburi yoxaçıxma aktları isə son dərəcə ağır xarakterini nəzərə almaqla müvafiq cəza tədbirlərini nəzərdə tutan cinayət hüququna görə cinayət sayılır. Bu müddəaların inkişaf etdirilməsi üçün 12 yanvar 2006-cı ildə BMT-nin Baş Məclisi bütün şəxslərin məcburi yoxaçıxmalardan müdafiəsinə dair Beynəlxalq Konvensiya qəbul etmiş və bu Konvensiyanın normalarına

görə, adam oğurluğu insanlığa qarşı cinayətlərə aid edilərək beynəlxalq hüquqla nəzərdə tutulan nəticələrə gətirib çıxarmalıdır.

Cinayət qanunvericiliyinin retrospektiv təhlili nəticəsində Rusiyanın və digər MDB ölkələrinin cinayət məcəlləsində tarixən adam oğurluğuna görə məsuliyyət haqqında xüsusi normanın olmadığı müəyyən olunmuşdur. Rusiyanın cinayət məcəlləsinə bu norma 1993-cü ildə, qeyd edilən cinayətlərin geniş yayılması ilə əlaqədar daxil edilmiş və RSFSR-in 1960-cı il tarixli Cinayət məcəlləsinə 125-1 – "Adam oğurluğu" maddəsi əlavə olunmuşdur. Sonradan bu normanı RF-nin 1996-cı il Cinayət Məcəlləsi, MDB-nin, demək olar ki, bütün digər ölkələrinin, o cümlədən Azərbaycan Respublikasının cinayət məcəllələri də qəbul etmişdir.

Adam oğurluğu anlayışının normativ nöqteyi-nəzərdən müəyyən edilməməsi qanunu tətbiq edən şəxsdən hər dəfə bu və ya digər əməlin adam oğurluğu olub-olmadığını müstəqil surətdə müəyyən etməsini tələb edir. Qeyd etmək lazımdır ki, daha geniş təriflər məhkəmə praktikasında və yalnız bundan sonra yaxud ən azı, bununla paralel olaraq, cinayət hüququ doktrinasında verilmişdir.

Adam oğurluğu anlayışının tərifi, birincisi, 1960-cı il AR CM-nin və 1960-cı il RSFSR CM-nin bir sıra normalarında olan "oğurluq" anlayışının tərifi ilə bağlı olub və cinayət hüququ elmində bu və ya digər dərəcədə həmin normalara görə işlənib hazırlanmışdır; ikincisi, AR CM-nin və RF CM-nin bir tərəfdən, adam oğurluğuna görə, digər tərəfdən isə – oxşar tərkibli cinayətlərə görə normalarının müqayisəsi ilə; üçüncüsü isə, Azərbaycan Respublikası və Rusiya Federasiyasının alimləri tərəfindən cinayət hüququ nəzəriyyəsi üzrə elmi əsərlərində verdiyi adam oğurluğu anlayışının təriflərinin tənqidi təhlili ilə bağlıdır. Fikrimizcə, yuxarıda qeyd edilən məqamlar, "adam oğurluğu" anlayışının elmi cəhətdən əsaslandırılmış tərifini ifadə etməyə imkan verən bir sıra çıxış nöqtəsi yaradır.

Birinci çıxış nöqtəsi – "oğurluq" termini 1960-cı il AR CM-nin və 1960-cı il RSFSR CM-nin casusluq, oğurluq, soyğunçuluq, özgə uşağının oğurlanması və ya dəyişdirilməsi, nikaha daxil olmaq məqsədi ilə qadının oğurlanması, rəsmi sənədlərin, möhürlərin, ştampların, blankların oğurlanması və ya məhv edilməsinə görə məsuliyyət haqqında normalarda istifadə olunurdu. Hansı əlamətlə – cinayətin predmeti və ya cinayətdən zərərçəkmişlə birgə istifadə edilməsindən asılı olmayaraq, eyni olan "oğurluq" termininə cinayət hüququ nəzəriyyəsində sadalanan normalardan hər birinə uyğun olaraq tərif verilirdi. Adam oğurluğu anlayışının məzmununun açılması zamanı bu təriflərin "oğurluq" termininin əsası kimi götürülməsi zəruri görünür.



İkinci çıxış nöqtəsi – oxşar cinayət tərkiblərinin (bir tərəfdən, adam oğurluğunun və digər tərəfdən – qanunsuz azadlıqdan məhrumetmənin və girov götürmənin) elementlərini nəzərdə tutan cinayət-hüquq normalarının müqayisə edilməsidir. Bunun nəticəsində adam oğurluğu anlayışının fərdiləşdirilməsi mümkündür.

Üçüncü çıxış nöqtəsi cinayət hüququ nəzəriyyəsi üzrə elmi əsərlərdə qüvvədə olan qanunvericiliyə uyğun olaraq verilən və əsaslandırılan adam oğurluğu anlayışının təriflərinin tənqidi təhlilidir. Belə təhlilin zəruriliyini onunla əsaslandırmaq olar ki, cinayət hüququ sahəsində Rusiya alimləri adam oğurluğu anlayışına təxminən on il ərzində dərc olunmuş çoxlu sayda elmi əsərdə tərif vermişdir, çünki Rusiya Federasiyasında ilk dəfə 1960-cı il RSFSR CM-nin $125^1$ maddəsi ilə müəyyən olunmuş adam oğurluğu haqqında norma bu CM-yə RF-nin 29 aprel 1993-cü il tarixli qanunu ilə daxil edilmiş və sonradan, dəyişiklik və əlavələrlə olsa da, RF CM-nin 126-cı maddəsində təkrar edilmişdir. Azərbaycanda isə analoji norma ilk dəfə bu Məcəllə qəbul edilərkən AR CM-nin 144-cü maddəsinə daxil edilmişdir.

Cinayət-hüquq doktrinasında ifadə olunmuş "adam oğurluğu" təriflərində həm götürülməsi məqsədəuyğun olan pozitiv aspektlər, həm də adam oğurluğunun bütün əlamətlərinin verilməməsindən yaxud onların təkrarlanmasından ibarət yanlışlıqlar var. Pozitiv məqamlara adam oğurluğu əlamətlərinin göstərilməsini aid etmək zəruri görünür, məsələn: insanın məhz fiziki azadlığının məhdudlaşdırılması; bu məhdudiyyətinin müddətinin istənilən müddət olması; götürülmə yeri – təbii mühit; təqsirin qərəzli forması. Sadalanan əlamətlərin adam oğurluğu anlayışının tərifinə daxil edilməsi qeyd edilən anlayışın dəqiqləşdirilməsinə və müvafiq olaraq zənginləşdirilməsinə, bu anlayışda cinayət hüququnun daha əsaslı surətdə əks olunmasına imkan verəcək.

"Adam oğurluğu" anlayışının qanunvericilikdə təsbit edilməsinin zəruriliyini dissertantın apardığı sosial tədqiqatda rəyi soruşulan cinayət məhkəmə icraatının vəzifəli şəxslərinin əksəriyyəti (91,6% müstəntiq və 70.4% hakim) təsdiq edir.

Yuxarıda nəzərdən keçirilən və ümumilikdə adam oğurluğu anlayışının mahiyyəti haqqında cinayət qanunu ilə cəzalandırılan əməl kimi tam təsəvvür yaradan aspektlər nəzərə alınmaqla, bu anlayışa aşağıdakı tərifi vermək olar.

Adam oğurluğu insanın iradəsinin əleyhinə yaxud iradəsindən kənar onun şəxsi fiziki azadlığının məhdudlaşdırılmasına yönəldilən, onun daimi və ya müvəqqəti olduğu və hərəkət etdiyi yerdə ələ keçirilməsi

(götürülməsi) və sonradan başqa yerdə saxlanılması yolu ilə qəsdən törədilən qanunazidd hərəkətlər hesab edilməlidir.

**"Adam oğurluğuna görə cinayət məsuliyyətinin kriminoloji əsasları"** adlı ikinci paraqraf ümumilikdə adam oğurluğunun kriminoloji xarakteristikasını təşkil edən kriminoloji baxımdan əhəmiyyətli əlamətlərin tədqiqinə, habelə Rusiya Federasiyası və Azərbaycan Respublikasında bu cinayətin müqayisəli kriminoloji aspektlərinin tədqiqinə həsr olunmuşdur.

1997-2001-ci illər ərzində adam oğurluğunun vəziyyəti, səviyyəsi, dinamikası və cinayətkarlığın strukturunda payı haqqında məlumatların təhlili nəzərdən keçirilən cinayət növünün müəyyən dərəcədə təzahür etmiş tendensiyaları haqqında hər hansı müəyyən nəticələri çıxarmağa imkan vermir. Yalnız onu qeyd etmək olar ki, 2001-ci ildən başlayaraq indiyə qədər bu cinayətlərin sayı əvvəlki illərlə müqayisədə kəskin surətdə azalmış, onların bütün cinayət növləri arasında payı azalmış, lakin şəxsiyyətin azadlığı və ləyaqətinə qarşı cinayətlər arasında isə artmışdır. Belə ki, 1997-ci ildə RF CM-nin 126-cı maddəsində nəzərdə tutulan 1140, 1998-ci ildə - 1415, 1999-cu ildə - 1554, 2000-ci ildə - 1291, 2001-ci ildə - 1417, 2002-ci ildə - 1535, 2003-cü ildə - 1367, 2004-cü ildə - 1108, 2005-ci ildə - 1135, 2006-cı ildə - 994, 2007-ci ildə - 837 (19[1]), 2008-ci ildə - 698 (17), 2009-cu ildə - 633 (9) əməl qeydə alınmışdır. Bununla yanaşı 1997-ci ildə qanunverici tərəfindən RF CM-nin 17-ci "Şəxsiyyətin azadlığı, şərəf və ləyaqəti əleyhinə olan cinayətlər" fəslində (AR CM-nin 19-cu "Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər" fəslində) təsbit edilmiş - 8258, 1998-ci ildə - 12030, 1999-cu ildə - 18472, 2000-ci ildə - 18578, 2001-ci ildə 15023, 2002-ci ildə - 11971, 2003-cü ildə - 12402, 2004-cü ildə - 16112, 2005-ci ildə – 19785, 2006-cı ildə - 21043, 2007-ci ildə - 23093, 2008-ci ildə - 24469, 2009-cu ildə - 25570 cinayət qeydə alınmışdır.

Bu cinayətlər qrupunda adam oğurluğunun payı müvafiq olaraq, 1997-ci ildə - 13,8%, 1998-ci ildə - 11,7%, 1999-cu ildə - 8%, 2000-ci ildə - 6,9%, 2001-ci ildə - 9,4%, 2002-ci ildə - 12,8 %, 2003-cü ildə - 11%, 2004-cü ildə - 6,8%, 2005-ci ildə - 5,7%, 2006-cı ildə - 4,7%, 2007-ci ildə - 3,6%, 2008-ci ildə - 2,8%, 2009-cu ildə - 2,4% təşkil etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin ağır cinayətlərə dair hesabatında qeyd olunur ki, 2009-cu ildə məhkəmələr tərəfindən cəmi 23 cinayət işinə baxılmış, onlardan 19-u hesabat ilində daxil olmuş, 4-ü isə ötən ilin qalığıdır. 20 cinayət işi üzrə hökm çıxarılmış, bir təqsirləndirilən şəxsə qarşı tibbi xarakterli icbari tədbirlər görülmüşdür. Növbəti hesabat ilinə qalıq kimi 2 cinayət işi keçmişdir.

Qeyd etmək lazımdır ki, hal-hazırda Azərbaycan Respublikasında cinayətlərin vahid qeydiyyat sistemi yoxdur, bu da, cinayətkarlığın



strukturunun və dinamikasının tədqiqini çətinləşdirir. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasında bu cür qeydiyyatın yaradılması məsələsinin qaldırılmasını təklif edirik.

Adam oğurluğunun və onu törədən şəxslərin kriminoloji xarakteristikası cinayətkarlığın, cinayət qruplarının və növlərinin, habelə cinayətkarın şəxsiyyətinin kriminoloji xarakteristikası haqqında kriminologiya elmində ümumi qəbul edilmiş müddəalara əsaslanır.

Adam oğurluğunu törətmiş şəxslərin kriminoloji xarakteristikası cinayətkarın şəxsiyyəti anlayışına əsaslanır. Bu cinayətlərin törədilməsi halları səbəbindən əsas kütləni (98%) kişilər təşkil edir. Qadınlar isə, əksər hallarda, qabaqcadan əlbir olmaqla bir qrup şəxs tərəfindən törədildikdə bu cinayətlərdə iştirak edib. Eyni zamanda, cinayət işlərinin təhlili göstərir ki, qadının rolu, bir qayda olaraq, saxlanılması zamanı oğurlanan adama nəzarət etməkdən, potensial qurban haqqında məlumat axtarmaqdan, girovun azad edilməsi üçün tələb haqqında danışıqların aparılmasından və tələbin alınmasından ibarət olub. Oğurluğun törədilməsinin əsas motivi: tamah – 74%; borc verilmiş əmlakın və pul vəsaitlərinin qaytarılması – 16%; "xoş niyyətlə" uşağın oğurlanması – 3%; habelə bəzi hallarda – zorlama olmuşdur.

Məhkumluq kimi cinayət-hüquq əlamətini araşdırarkən qeyd etmək lazımdır ki, tədqiqatımızın nəticələrinə əsasən, adam oğurluğunu törətmiş əvvəllər məhkum olunmuş şəxslərin payı orta hesabla 16,8% təşkil etmişdir. Azərbaycan Respublikasında da bu cinayətkarlığın mənzərəsi tamamilə eynidir. Şəxsiyyətin sosial-demoqrafik altstrukturu mövqeyindən adam oğurluğunu böyük əksəriyyəti ilə: a) kişi cinsindən olan – 91,4%; b) 20-35 arası yaşda olan; c) oxumayan və işləməyən – 75,9% şəxslər törədir. Rusiya Federasiyasında olduğu kimi, 16 yaşa qədər heç bir adam oğrusu məhkum olmamışdır. Bu cinayətə görə məhkum olunanların yarısı – 50%-i ailəlidir, ailəli olanların hamısını 100% kimi götürsək, onların əksəriyyətinin – 69,7%-nin himayəsində yetkinlik yaşına çatmayan uşaq var. Adam oğurluqlarının böyük əksəriyyəti – 80%-i – 2 nəfərdən 6 nəfərədək şəxsdən ibarət qruplar tərəfindən törədilmişdir.

Deyilənləri yekunlaşdıraraq, Azərbaycan Respublikasında adam oğrusunun şəxsiyyətinin tipik obrazını Azərbaycan Respublikasının vətəndaşı olan, işləməyən və təhsil almayan, orta təhsilli, keçmişin qalıqlarını ehtiva edən milli adət-ənənələrdən azad olmayan, tamah niyyəti olan, məhkum olunmamış, cinayəti iştirakçılıqla törədən, 20-35 yaşlarında kişi cinsindən şəxs kimi xarakterizə etmək olar.

Rusiya Federasiyasında oğrunun şəxsiyyəti öz xarakteristikalarına görə bütövlükdə Azərbaycan Respublikasına münasibətdə təsvir olunan

xarakteristikalarla üst-üstə düşür. Əsas fərq Rusiyada keçmişin qalığı kimi motivin ("gəlinin qaçırılması") olmamasından ibarətdir.

Cinayətkarların hərəkətlərinin səbəblərini tədqiq edən dissertant belə nəticəyə gəlmişdir ki, adam oğurluğu vətəndaşlar arasında yaranan ziddiyyətlərin həll olunması üsuludur.

Qadınların nikaha daxil olmaq məqsədilə və özgə uşaqlarının böyütmək və ya əsarətdə saxlamaq məqsədilə qaçırılmasından başqa, adam oğurluğunun törədilməsinə səbəb olan şərtlər arasında cinayətkarların törətdikləri əmələ görə cəzalandırılmayacaqlarına yüksək əminliyi; bir sıra hallarda qaçırılmış adamın yaxın və qohumlarının hüquq-mühafizə orqanlarının zərərçəkmişi tapıb azad edəcəyinə inanmamaları və qaçırılmış şəxsin həyat və ya sağlamlığına görə ehtiyat etmələri səbəbindən bu orqanlara müraciət etməmələri; dövlət hüquq-mühafizə orqanlarının, bələdiyyə orqanlarının və məhkəmələrin, o cümlədən arbitraj məhkəmələrinin fəaliyyətində çatışmazlıqları; AR CM-nin 144-cü maddəsinə 1 saylı qeyddə adam oğurluğunu törədən, lakin oğurlanmış şəxsi könüllü azad edən şəxsin cinayət məsuliyyətindən azad olunması şərtlərinin dəqiq təsbit edilməməsi; oğurlanmış şəxsin özünü qurban kimi aparması; işsizliyin səviyyəsinin yüksəlməsi ilə əlaqədar müəyyən məşğuliyyəti olmayan şəxsləri sayının artması kimi şərtləri qeyd etmək lazımdır.

Azərbaycan Respublikasında qadınların əsasən nikaha daxil olmaq məqsədilə qaçırılması ilə bağlı vəziyyətin spesifikasını nəzərə alaraq, bir tərəfdən bu növ cinayətlərin qarşısının alınması üçün Rusiya Federasiyasına uyğun işlənib hazırlanmış tədbirləri mənimsəmək, digər tərəfdən isə qeyd edilən spesifikadan irəli gələn digər bu növ tədbirləri də istifadə etmək məqsədəuyğun görünür.

Adam oğurluğunun qarşısının alınması üzrə Rusiya Federasiyasına uyğun işlənib hazırlanmış tədbirlərdən Azərbaycan Respublikasında istifadə olunması üçün götürülməsi faydalı sayılan tədbirlərə aşağıdakıları aid etmək olar: 1) cinayətkarlığın qarşısının alınması üzrə adam oğurluğunun qarşısının alınması bölmələrindən ibarət məqsədli və kompleks proqramların işlənib hazırlanması; 2) xüsusi bölmələrin yaradılması və adam oğurluğunun qarşısının alınması üzrə vəzifələrin onlara tapşırılması, Azərbaycan Respublikasında isə belə bölmələrin DİN-in və böyük şəhərlərin Dİİ-nin mərkəzi aparatlarında yaradılması, digər yerlərdə isə qeyd edilən vəzifələrin ayrı-ayrı daha təcrübəli və hazırlıq keçmiş əməkdaşlara tapşırılması məqsədəuyğundur; 3) vətəndaşların viktimoloji maarifləndirilməsi və onlara adam oğurluğu ilə mübarizə üzrə fəaliyyətin nəticələri, o cümlədən belə cinayətlərin qarşısının alınması haqqında məlumatlandırılması üçün kütləvi informasiya vasitələrinin kütləvi şəkildə istifadəsi; 4) nəzərdən keçirilən cinayətlərin üstünün açılmasında



nöqsanların üzə çıxarılması və onların aradan qaldırılması üzrə metodiki tövsiyələrin hazırlanması; 5) adam oğurlanmasına dair işlər üzrə təqsirləndirilən şəxslər, həmçinin barəsində müvafiq operativ məlumatlar olan şəxslər haqqında məlumat bazasının yaradılması. Əməliyyat-axtarış fəaliyyətini, təhqiqatı və ibtidai istintaqı həyata keçirən orqanlar tərəfindən qanunların icrasına prokuror nəzarəti cinayətkarlığa qarşı əks təsir sahəsində xüsusi əhəmiyyət kəsb edir. Cinayətkarlığın qarşısının alınmasına məhkəmələrin müəyyən əməyi var. Cinayətkarlara qarşı cəzanın tətbiq edilməsinin məqsədlərindən biri onlar tərəfindən yeni cinayətlərin törədilməsinə yol verməməkdir (xüsusi qarşısını alma və ya xüsusi prevensiya). Bununla yanaşı, cəza digər insanları cinayət törətməkdən çəkindirir (ümumi qarşısını alma və ya prevensiya).

**"Rusiya Federasiyası və Azərbaycan Respublikasının qanunvericiliyinə görə adam oğurluğunun cinayət-hüquqi xarakteristikası"** adlı ikinci fəsil üç paraqrafdan ibarətdir. **"RF CM-nin 126-cı və AR CM-nin 144-cü maddələri ilə nəzərdə tutulan cinayət tərkiblərinin obyektiv kriminal yaradan əlamətlərinin xarakteristikası"** adlanan birinci paraqrafda təhlil olunan cinayət əməlinin obyektiv tərəfini təşkil edən obyekt və əlamətlər məsələsinə toxunulur və müəllifin mövqeyi bildirilir. Azərbaycanın əvvəlki cinayət məcəllələrindən fərqli olaraq, 1999-cu il AR CM-də oğurluğun növ obyekti dəqiqləşdirilib və bu, şəxsiyyətin azadlığı, yəni Azərbaycan Respublikasının Konstitusiyasında doğulduğu andan hər bir insana məxsus nemət kimi təsbit olunmuş insan azadlığı (m. 28), təhlükəsiz yaşama (m. 31), şəxsi toxunulmazlıq (m.32), şərəf və ləyaqətdir (m. 46).

Adam oğurluğunun əsas bilavasitə obyektinin – azadlıq və şəxsi toxunulmazlığın – xarakteristikası nəinki hərəkət variantını şüurlu şəkildə seçmək qabiliyyətindən məhrum edilmiş şəxsləri zərərçəkmiş kimi tanımaq imkanı verir, həm də bir sıra hüquqi əsasları var. Birincisi, azadlıq hüququ və şəxsi toxunulmazlıq nisbətinin hüquqi qeyri-müəyyənliyi mövcuddur, bunun nəticəsində də həmin nisbətin müzakirə edilməsi yalnız doktrinal şərh çərçivəsində mümkündür. İkincisi, azadlıq hüququnun və şəxsi toxunulmazlığın RF Konstitusiyasının bir normasında təsbit edilməsi (AR Konstitusiyasında olduğu kimi) bu kateqoriyaların ayrılmadığını təsdiq etməyə imkan verir. Təsadüfi deyil ki, bəzi müəlliflər azadlıq və toxunulmazlıq hüququnu insanın ən mühüm konstitusiya hüquqlarına aid olan bir hüquq kimi xarakterizə edir. Üçüncüsü, RF-nin Konstitusiya məhkəməsi şəxsiyyətin toxunulmazlığına RF CM-nin 126-cı maddəsi ilə bərabər qorunan azadlıq kimi baxır. Yuxarıda deyilənləri yekunlaşdıraraq qeyd edək ki, adam oğurluğunun əsas bilavasitə obyekti kimi təkcə azadlığı

deyil, həm də şəxsi toxunulmazlığı qəbul etmək lazımdır. Azadlığa və şəxsi toxunulmazlığa yalnız canlı insan malikdir. Deməli, şübhəsiz ki, adam oğurluğu cinayətində zərərçəkmişin canlı insan olduğunu dəqiqləşdirmək düzgün olar, meyitin oğurlanması isə ölənlərin cəsədləri və qəbirləri üzərində təhqiredici hərəkətlərin tərkib əlamətlərindən ibarətdir (RF CM m. 244).

Bundan əlavə, fikrimizcə, əlavə obyektlərə, hətta onların siyahısı şübhə doğursa belə, hər hansı mümkün obyekt kimi tərif verilə bilməz. Məsələn, cinsi azadlıq və ya cinsi toxunulmazlıq, ədalətin maraqları, təbii sərvətlərin qorunması və səmərəli istifadəsinin və ekoloji təhlükəsizliyin təmin olunmasının maraqları və eləcə də bir sıra digər obyektlər adam oğurluğunun əlavə obyekti ola bilməz. Onlara ziyan vurulması adam oğurluğunun RF CM-nin və AR CM-nin müvafiq fəsilləri ilə nəzərdə tutulan cinayətlərlə birgə tövsif edilməsini tələb edir. Beləliklə, yalnız həyat və sağlamlığın adam oğurluğunun əlavə obyektinə aid edilməsi əsaslandırılmış görünür.

Cinayət tərkibinin bu elementinin ümumi anlayışında obyektiv tərəfin məzmununu təşkil edən əlamətlərin "adam oğurluğu" cinayət tərkibinin AR CM-nin 144.1-ci maddəsinin (RF CM-nin 126-cı maddəsinin 1-ci hissəsi) dispozisiyaları ilə nəzərdə tutulan elementləri ilə müqayisə edilməsi əsasında müəyyən olunub ki, adam oğurluğu cinayətinin tərkibinin obyektiv tərəfinə yalnız bir əlamət – əməl xasdır və müvafiq olaraq, bu cinayətin tərkibi formaldır.

Qeyd edilir ki, adam oğurluğunun tövsifedici və xüsusilə tövsifedici tərkibinin AR CM-nin 144.2.4, 144.2.5, 144.3 maddələri və RF CM-nin 126-cı maddəsinin 2-ci hissəsinin "v" və "q", 3-cü hissəsinin "v" bəndləri ilə nəzərdə tutulan ayrı-ayrı növlərinin obyektiv tərəfi bu cinayət tərkibinin əlamətlərinə uyğun əlavə tövsifedici və xüsusilə tövsifedici əlamətlərlə xarakterizə olunur.

Həmçinin qeyd olunub ki, obyektiv tərəfin cinayətin obyekti ilə əlaqəsi ondan ibarətdir ki, məhz obyektiv tərəf (adam oğurluğu) bu obyektə (insanın şəxsi azadlığına) qarşı ziyanın vurulması və ya ziyanın vurulması hədəsi ilə əlaqədar real ictimai təhlükəli qəsdi xarakterizə edir.

**"AR CM-nin 144-cü və RF CM-nin 126-cı maddələri ilə nəzərdə tutulan cinayət tərkiblərinin subyektiv kriminal yaradan əlamətlərinin xarakteristikası"** adlı ikinci paraqrafda adam oğurluğunun subyekti kateqoriyasının, həmçinin təqsirkar şəxsin törətdiyi əmələ daxili münasibətinin tərkib hissələri təhlil olunur. Qeyd olunur ki, RF CM-nin 126-cı maddəsi (AR CM m. 144) ilə nəzərdə tutulan cinayətin subyekti həm öz ölkəsinin vətəndaşı, həm də vətəndaşlığı olmayan yaxud da əcnəbi



vətəndaş olan, on dörd yaşına çatmış anlaqlı şəxsdir. Axıra çatdırılmış "adam oğurluğu" cinayətinin icraçı (iştirakçı) rolunda törədilməsi bu cinayət tərkibinin bütün əlamətlərindən ibarət əməlin həm tək insan tərəfindən, həm qrupun, əvvəlcədən əlbir olan qrupun, mütəşəkkil dəstənin və cinayətkar birliyin (cinayətkar təşkilatın) tərkibində axıra çatdırılması şərtilə şəxs tərəfindən həyata keçirilməsidir.

Subyektin adam oğurluğunun mütləq kriminal yaradan əlaməti kimi tədqiqi baxımından, adam oğurluğunu törətmiş şəxsin azad olunmasının AR CM-nin 144-cü maddəsinə, eynilə də RF CM-nin 126-cı maddəsinə qeyddə nəzərdə tutulan iki şərti: 1) oğurlanan şəxsin azad edilməsinin könüllülüyü və 2) təqsirkarın hərəkətlərində başqa cinayət tərkibinin olmaması qeyd edilmiş, bu şərtlərdən hər birinin məzmunu açıqlanmış və göstərilən qeyddə müəyyən olunmuş normanın təkmilləşdirilməsi haqqında təklif əsaslandırılmışdır.

Adam oğurluğunun subyektiv tərəfi məsələsi bütövlükdə mübahisəli məsələlərə aid deyil. Bu cinayət ehtiyatsızlıqdan törədilmiş cinayət ola bilməz. RF Ali Məhkəməsin Rəyasət Heyətinin cinayət işləri üzrə qərarlarında deyildiyi kimi, "qanunun mənasına görə, adam oğurluğu dedikdə, qanunazidd qərəzli hərəkətlər başa düşülməlidir". Adam oğurluğunda təqsirkar şəxs zərərçəkmişlərin iradəsinin əleyhinə və ya iradəsindən kənar sonuncuların qanunazidd ələ keçirilməsinin, hərəkət etdirilməsinin və saxlanılmasının ictimai təhlükəliliyini dərk edir və bu əməlləri törətmək istəyir. Zərərçəkmişin həqiqətən də öz iradəsinin əleyhinə olaraq hərəkət etdirilməsinin və başqa yerdə saxlanılmasının dərk edilməməsi ictimai təhlükəliliyin dərk edilməsini istisna edir.

Subyektiv tərəfi açıqlayarkən onun zərərçəkmişin ölümünə və ya digər ağır nəticələrə səbəb olmuş adam oğurluğu zamanı yaranan xüsusiyyətinə diqqət yetirmək lazımdır. AR CM-nin 144.3-cü (RF CM m. 126, h. 3, b. "v") maddəsinin dispozisiyasına əsasən ölümə və ya qeyd edilən nəticələrə psixi münasibət yalnız ehtiyatsız olmalıdır. Burada təqsir törədilən əmələ eyni psixi münasibət deyil, niyyətlə ehtiyatsızlığın birləşməsidir. Belə ki, RF CM-nin 126-cı maddəsinin 3-cü hissəsi ilə nəzərdə tutulan cinayətin törədilməsi zamanı (zərərçəkmişin ehtiyatsızlıqdan öldürülməsi) zərərçəkmişin ölümü adam oğurluğunun ehtiyatsız nəticəsidir. Qanunvericilik konstruksiyasına görə, bu tərkib formaldır və adam oğurluğu təqsirkarın niyyətinin yönəldildiyi əməlin birbaşa nəticəsidir. Subyektin zərərçəkmişin ölümünə psixi münasibəti ya cinayətkarcasına özünə güvənmə ya da cinayətkarcasına laqeydlik formasında ifadə edilməlidir. Şəxs zərərçəkmişin ölümünə qərəzli

münasibət göstərdiyi halda isə, bütün törədilənləri qətl kimi tövsif etmək lazımdır.

Əməlin özündən başqa, adam oğurluğunun ictimai təhlükəliliyini müəyyən edən və ya onun təhlükəlilik dərəcəsinə təsir edən və təqsirkar şəxsin dərk etməli olduğu digər subyektiv əlamətlər, bizim fikrimizcə, birincisi, zərərçəkmişi canlı insan kimi xarakterizə edən konstitutiv əlamət (AR CM m. 144.1); ikincisi, zərərçəkmişləri, müvafiq olaraq, təqsirkar üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın (m. 144.2.2) və yetkinlik yaşına çatmayan şəxs (m. 144.3) kimi fərdiləşdirən tövsifedici və xüsusilə tövsifedici əlamətlər; üçüncüsü, zərərçəkmişlərə aid edilən, həmin cinayətin iki və ya daha çox şəxs barəsində törədilməsindən ibarət tövsifedici əlamət (m. 144.2.1); dördüncüsü, cinayət tərkibinin obyektiv tərəfinə xas olan və araşdırılan əməlin zərərçəkmiş şəxsin həyat və sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə (m. 144.2.4) və silahdan yaxud silah qismində istifadə edilən əşyalardan istifadə etməklə (m. 144.2.5) törədilməsi ilə ifadə olunan tövsifedici əlamətlər və beşincisi, qeyd edilən əməlin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik, cinayətkar təşkilat tərəfindən (AR CM m. 144.2.3) törədilməsindən ibarət iştirakçılığa xas tövsifedici əlamətdir. Şəxsin sadalanan əlamətlərdən biri ilə və müvafiq normalarla təqsirləndirilməsi üçün həmin şəxsin onlardan hər birinin mövcudluğunu dərk etməsi, yəni həmin əlamətin olması barədə bilməsi lazımdır.

Nəzərdən keçirilən əməlin səbəb və məqsədləri müxtəlif ola bilər və qanunverici, tamah məqsədi istisna olmaqla, onları qeyd etmir. Tamah məqsədinin olması isə həmin cinayətin tövsifedici tərkibini təsdiq edir.

Bununla eyni zamanda, zərərçəkmiş şəxsə qarşı qanuni tələblər irəli sürmək məqsədilə (məsələn, borcun qaytarılması) adam oğurluğu törətmiş təqsirkar şəxslərin hərəkətlərinin tövsif edilməsi məsələsi də nəzərdən keçirilib. Belə hallarda cinayətkarlar mahiyyətinə görə qanuni olan nəticəni əldə etməyə çalışır, lakin ona nail olmaq üçün qanunla qorunan digər maraqlara ziyan vuran üsuldan istifadə edirlər. Təqsirkar seçdiyi üsul nəticəsində bu münasibətlərin pozulacağını dərk etməsinə baxmayaraq, pul vəsaitlərinin özbaşına məcburi götürülməsi zərərçəkmişin azadlıqdan məhrum edilməsi məqsədini güdmür. Buna görə də belə hərəkətlər AR CM-nin 322-ci maddəsi (RF CM m. 330) ilə özbaşınalıq kimi tövsif edilməlidir.

**"RF CM-nin 126-cı və AR CM-nin 144-cü maddələri ilə nəzərdə tutulan cinayət tərkiblərinin tövsifedici kriminal yaradan əlamətlərinin xarakteristikası"** adlı üçüncü paraqrafda RF CM-də və AR CM-də adam oğurluğuna görə məsuliyyəti fərqləndirən halların icmalı aparılır və onların tənqidi və müqayisəli təhlili verilir. Qeyd olunur ki,



Azərbaycan Respublikasının cinayət qanunvericiliyində adam oğurluğunun on tövsifedici əlaməti müəyyən olunub. Onlardan altısı həmin cinayətin tövsifedici tərkibinə görə məsuliyyətin fərqləndirilməsi meyarlarıdır. Bu, cinayətin: iki və ya daha çox şəxs barəsində (m. 144.2.1); təqsirkar üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində (m. 144.2.2); qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən (m. 144.2.3); həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə (m. 144.2.4); silahdan yaxud silah qismində istifadə edilən əşyalardan istifadə etməklə (m. 144.2.5); tamah məqsədilə və ya sifarişlə (AR CM m. 144.2.6) törədilməsidir. İki tövsifedici əlamət isə, yəni: 1) əməlin bir qrup şəxs tərəfindən törədilməsi; və 2) əməlin sifarişlə törədilməsi – adam oğurluğu zamanı məsuliyyətin fərqləndirilməsi meyarlarıdır. Azərbaycan və Rusiya qanunvericiliyində əlamətlərin oxşar olması səbəbindən sonuncuların texniki-hüquqi baxımdan qurulmasının mübahisəli məqamlarına diqqət yetirilmiş və onların həll olunması üzrə tədbirlər və RF CM-nin 144-cü maddəsinin yeni redaksiyası təklif olunmuşdur (bax: müdafiəyə çıxarılan müddəalar).

Qeyd edək ki, bizim fikrimizcə, Rusiya Federasiyasının qanunvericiliyində bir qədər qeyri-müəyyənliyə yol verilib, AR CM-də isə bunun qarşısını almaq mümkün olmuşdur. Belə ki, AR CM-nin 144.2-ci maddəsində tamah məqsədilə yanaşı daha bir tövsifedici əlamət var – əməlin sifarişlə törədilməsi. Düşünürük ki, sifariş münasibətlərinin mövcudluğu əməlin daha yüksək ictimai təhlükəliliyindən xəbər verir və bununla əlaqədar olaraq, RF CM-nin 126-cı maddəsində onları müstəqil tövsifedici əlamət kimi ayırmaq lazımdır. Bunun dolayı təsdiqi RF CM-nin qətlə görə məsuliyyəti nəzərdə tutan 105-ci maddəsinin 2-ci hissəsində tamah məqsədinin və sifarişlə hərəkətlərin müstəqil tövsifedici əlamət kimi ayrılmasıdır.

Yuxarıda sadalananlardan RF CM-nin 126-cı maddəsinə şəxs tərəfindən sifarişlə törədilmiş adam oğurluğu kimi tövsifedici əlamətin əlavə edilməsi zərurəti irəli gəlir.

Məhkəmə praktikasının göstərdiyi kimi, oğurluğa dair cinayət işləri üzrə zərərçəkmişlərin köməksiz vəziyyəti yaşla – azyaşlılıq, qocalıq, habelə xəstəlik və əlilliklə (bu halda daimi köməksizlikdən söhbət gedir) bağlıdır. Zərərçəkmişin köməksizliyi vəziyyətinə həmçinin: yuxu, güclü sərxoşluq, ürəkgetmə və zərərçəkmişin hər hansı digər səbəbdən huşsuz vəziyyətdə olması halları (bu halda söhbət müvəqqəti köməksizlikdən gedir) aid edilməlidir. Köməksiz vəziyyətdə olmanın səbəbi cinayət tövsifinə təsir etmir, lakin hər bir halda AR CM-nin 144.3-cü maddəsinin müddəalarının tətbiq edilməsi üçün əsas kimi dəqiq müəyyən edilməlidir. AR CM-nin 144-

cü maddəsinin tətbiq edilməsi üçün qətlin subyektiv tərəfinin araşdırılması zamanı hər bir halda təqsirkarın oğurluq törədilən anda zərərçəkmişin köməksizliyini dərk etməsi müəyyən edilməlidir.

Yuxarıda sadalananları nəzərə alaraq, aşkar surətdə yetkinlik yaşına çatmayan şəxs barəsində cinayətin törədilməsinin adam oğurluğu zamanı tövsifedici əlamət hesab edilməsini və eyni zamanda bu cinayətlərdə yeni xüsusilə tövsifedici əlamətin – "təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxs barəsində əməlin törədilməsi"nin qeyd edilməsini təklif edirik. Artıq misal kimi xatırlatdığımız cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə cinayətlərlə analogiyaya görə, on dörd yaşına çatmayan şəxslər azyaşlı sayılmalıdır.

**"Adam oğurluğunun tövsifinin xüsusi məsələləri, onun oxşar tərkiblərdən ayırd edilməsi"** adlı üçüncü fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf "**Adam oğurluğunun azadlıqdan qanunsuz məhrum etmədən ayırd edilməsi"** adlanır. Bu paraqrafda RF CM və AR CM-yə görə adam oğurluğu ilə qanunsuz azadlıqdan məhrum etmənin ayırd edilməsinin müqayisəli-hüquqi təhlili aparılıb.

Nəzərdən keçirilən cinayət əsas əlamətlərinə görə şəxsiyyətin azadlığına qəsd edən digər əməllərlə və ilk öncə, AR CM-nin 145-ci və RF CM-nin 127-ci maddəsi ilə nəzərdə tutulan qanunsuz azadlıqdan məhrum etmə ilə oxşardır. Adam oğurluğunun qanunsuz azadlıqdan məhrum etmədən (AR CM m. 145 və RF CM m. 127) əsas fərqi zərərçəkmişin azadlığına qəsdin üsulundan ibarətdir.

Qanunsuz azadlıqdan məhrum etmənin adam oğurluğundan fərqi ondan ibarətdir ki, o, adamın zorla saxlanılmasını nəzərdə tutsa da, onun yalnız daimi və ya müvəqqəti olduğu yerdə (məsələn, onun şəxsi mənzilində, iş yerində, avtomobilində) saxlanılmasını nəzərdə tutur.

AR CM-nin 144 və 145-ci maddələrində (müvafiq olaraq, RF CM-nin 126 və 127-ci maddələri) nəzərdə tutulan cinayətlərdə subyekt, hətta cinayətkar məqsədlər güdsə də, onların yayılmasında maraqlı deyil. Oğurluq və zorla saxlama faktı, habelə girovdan azad etmə üçün tələbin məzmunu elan edilmir, girovdan azad etmə üçün tələb məxfi surətdə həyata keçirilir, yalnız yaxınlara və qohumlara bildirilir, saxlama yeri də məxfi saxlanılır, tələb irəli sürülən insanların çevrəsi də (qaçırılan, onun yaxın qohumları, dostları, həmkarları) məhduddur. Adam oğurluğu aldatma yolu ilə törədildikdə, yəni ələ keçirmə olmadıqda, oğurlanan şəxsin bir yerdən başqa yerə hərəkətinin isə zahirən "könüllü" baş verdiyi hallar tövsif üçün çətinlik yaradır.

Adam oğurluğunun və qanunsuz azadlıqdan məhrumetmənin subyektiv tərəfi birbaşa niyyətlə xarakterizə olunur. Cinayətin məqsədi,



səbəbləri tövsifə təsir göstərmir. Bu cinayətlərin subyektiv tərəflərinin elementlərinin təhlili zamanı yeganə fərq ondan ibarətdir ki, tamah niyyəti adam oğurluğu zamanı məsuliyyətin ayrılması meyarıdır (AR CM m. 144.2.6), lakin qanunvericilikdə qanunsuz azadlıqdan məhrum etmə zamanı belə meyar kimi nəzərə alınmır.

Qanunsuz azadlıqdan məhrum etməyə görə məsuliyyət AR CM-nin 145-ci maddəsi ( RF CM m. 127) ilə müəyyən olunub. AR CM-nin 145.1-ci maddəsinin dispozisiyasında bu cinayət "adam oğurluğu ilə bağlı olmayan qanunsuz azadlıqdan məhrum etmə" kimi müəyyən olunub. RF CM-nin müvafiq 127-ci maddəsinin 1-ci hissəsinin dispozisiyası də eyni cür ifadə olunub. Qanunvericinin sitat gətirilmiş tərifdə "adam oğurluğu ilə bağlı olmayan" söz birləşməsinin istifadə edilməsi birbaşa onu göstərir ki, qanunsuz azadlıqdan məhrum etmənin və adam oğurluğunun tərkibləri oxşardır və bir-birindən ayrılmalıdır.

İkinci paraqraf «**Adam oğurluğunun girov götürülmədən ayırd edilməsi»** adlanır. Bu paraqraf Rusiya Federasiyasının və Azərbaycan Respublikasının qanunvericiliyinə görə adam oğurluğunun girov götürmədən ayırd edilməsinə həsr olunub.

Girov götürməyə görə məsuliyyət AR CM-nin 215-ci maddəsi (RF CM m. 206) ilə müəyyən olunub. AR CM-nin 215-ci maddəsinin dispozisiyasında bu cinayətə "girov götürülən şəxsin azad olunması şərti ilə dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya hər hansı hərəkətdən çəkinməyə vadar etmək məqsədilə şəxsi girov götürmə və ya saxlama" kimi tərif verilib. RF CM-nin 206-cı maddəsinin 1-ci hissəsinin dispozisiyası da eyni şəkildə ifadə olunub.

Qanunverici bu əməli AR CM-nin 25-ci, RF CM-nin isə 24-cü – ictimai təhlükəsizlik əleyhinə cinayətlər fəslində yerləşdirib. Həm adam oğurluğu, həm də girov götürmə insanın ələ keçirilməsindən və zərərçəkmişin iradəsinin əleyhinə saxlanılmasından ibarətdir. Düzdür, adam oğurluğu həm də zərərçəkmişin bir yerdən başqa yerə hərəkət etməsini də nəzərdə tutur, girov götürmə üçün isə bu, mütləq deyil. Lakin, həmin əməllərin ayrılması üçün bu hal böyük əhəmiyyət kəsb etmir.

Mahiyyətinə görə adam oğurluğu hərəkətlərin və yerin müəyyən məxfiliyini nəzərdə tutur. Məxfilik ondan ibarətdir ki, təqsirkar zərərçəkmişi hüquq-mühafizə orqanlarına və oğurlanan şəxsin azad edilməsində maraqlı olan şəxslərə məlum olmayan yerdə saxlamağa çalışır.

Girov götürmə zamanı isə, əksinə, zərərçəkmiş aşıq hərəkət edir və təqsirkarın törətdiyi əməldən nəzərdə tutduğu nəticə, sanki bu açıqlıqdan ibarətdir. Cinayətkarların ədəbsizliyini göstərən bu açıqlıq girov götürmənin

adam oğurluğu ilə müqayisədə daha yüksək ictimai təhlükəliliyini qabaqcadan müəyyən edir.

Adam oğurluğu cinayət tərkibinin subyektiv tərəfinə onun mütləq əlaməti kimi hər hansı məqsəd xas deyil, lakin "girov götürmə" cinayət tərkibinin bu elementi mütləq əlamət kimi xüsusi məqsədlə xarakterizə olunur. AR CM-nin 215-ci və RF CM-nin 206-cı maddəsinə əsasən belə məqsəd alternativ olaraq: 1) dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya 2) dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkətdən çəkinməyə vadar etməkdir.

Üçüncü paraqraf **"Oğurlanmış adamı könüllü olaraq azad etmiş şəxsin cinayət məsuliyyətindən azad edilməsi"** adlanır. Bu paraqrafda oğurlanmış adamı könüllü azad edən şəxsin cinayət məsuliyyətindən azad edilməsi ilə bağlı problemli məsələlər tədqiq olunur.

AR CM-nin 144-cü və RF CM-nin 126-cı maddəsində əməllərində başqa cinayətin tərkibi olmayan və oğurlanmış adamı könüllü azad edən şəxsin cinayət məsuliyyətindən azad edilməsini nəzərdə tutan qeyd verilib. Cinayət törətmiş və ya törədən şəxslərin cinayət məsuliyyətindən azad edilməsi haqqında cinayət qanunu ilə nəzərdə tutulan qaydalar kimi, bu müddəa da RF CM-nin 2-ci maddəsində müəyyən edilən cinayətlərin qarşısının alınması vəzifəsinin həyata keçirilməsində mühüm rol oynayır. Bu normanın məzmunundan belə çıxır ki, onun tətbiq edilməsi üçün iki mütləq şərtin olması vacibdir. Bunlara: 1) oğurlanmış adamın könüllü azad edilməsi və 2) təqsirkarın əməllərində başqa cinayətin tərkibinin olmaması aiddir.

Nəzərdən keçirilən əmələ uyğun olaraq cinayətkar fəaliyyətin dayandırılmasının könüllülüyü daha bir vacib məqamın olmasını, yəni adam oğurluğunun məqsədinə nail olunmamasını nəzərdə tutur.

Belə şəraitdə daha bir əlamət – vaxtında olma da əhəmiyyətlidir, belə ki, adam oğurluğunu törətmiş şəxsin cinayət məsuliyyətindən azad edilməsinin mümkünlüyü məhz bu əlamətdən asılıdır.

Bütövlükdə, adam oğurluğuna və girov götürməyə görə məsuliyyəti müəyyən edən maddələrə qeydlərdə təşviqedici normanın olmasını təhlil edərək, hesab edirik ki, onun qüvvəsini vaxt həddi ilə məhdudlaşdırmaq lazımdır.

Qanunvericilik qaydasında bu normanın tətbiq edilə biləcəyi vaxt həddi müəyyən etmək lazımdır: onun qüvvəsi zərərçəkmişin 24 saatdan artıq saxlanılması hallarına şamil edilməməlidir.

Dissertasiyanın **nəticə** hissəsində müəllifin gəldiyi nəticələr və ifadə etdiyi müddəalar, həmçinin qüvvədə olan qanunvericiliyin və onun tətbiqi praktikasının təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir.



**Əlavələrdə** müstəntiqlər və hakimlərlə sorğunun aparılması üçün sualların nümunələri, habelə qeyd edilən şəxslərlə aparılan sorğu nəticəsində əldə olunan məlumatların cədvəlləri verilmişdir.

**Dissertasiyanın mövzusu üzrə aşağıdakı əsərlər dərc olunmuşdur:**


1. Adam oğurluğunun tövsifinin xüsusi məsələləri və onun oxşar cinayət tərkiblərdən ayrılması (Rusiya Federasiyası və Azərbaycan Respublikası qanunvericiliyinin müqayisəli-hüquqi təhlili) // Международное уголовное право и международная юстиция, 2009, № 2, с. 24-29, 0,4 п.л.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən adam oğurluğunun cinayət-hüquqi xarakteristikası // Международное уголовное право и международная юстиция, 2009, № 3, с. 32-37, 0,4 п.л.
3. Adam oğurluğunun tövsifi əlamətləri // Ганун, 2009, № 12, с. 75-82, 0,35 п.л.
4. Adam oğurluğu vaxtı məsuliyyətdən azad edilməsi şərtləri (Azərbaycan Respublikası və Rusiya Federasiyasının cinayət qanunvericiliyi üzrə müqayisəli-hüquqi tədqiqat) // Вестник Московского государственного областного университета. Серия «Юриспруденция», 2010, № 2, с. 63-66, 0,3 п.л.
5. Adam oğurluğuna yardım edən səbəb və şərait // Экономика, социология и право, 2010, № 3, с. 53-56, 0,3 п.л.
6. Cinayətkar qruplar tərəfindən törədilən adam oğurluğunun kriminalistik xarakteristikası // Закон и право, 2010, № 6, с. 72-74, 0,25 п.л.
7. Dövlət idarəetmə sistemində Azərbaycan Respublikasının cinayət hüququ: nəzəri aspekt / Материалы международной научной конференции «Эффективное государственное управление: вызовы времени» Баку, 05-06 декабря 2011 г., с. 236-240
8. Milli dövlətçiliyin möhkəmlənməsində mühüm amil olan cinayət hüququ elminin bəzi inkişaf tendensiyaları // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə, 2012 № 1 (37), s.136-141
9. İqtisadi fəaliyyət sahəsində cinayətlərə dair qanunvericilik

normaların modernləşdirilməsinin bəzi problemləri(RF Cinayət Məcəlləsinin 22-ci fəsli) (O.G. Solovyev ilə həmmüəlliflik) / Сборник научных статей по итогам II Международной научно-практической Интернет-конференции «Новеллы уголовного законодательства и судебной практики по делам об экономических преступлениях (гл.22 УК РФ)», Ярославль, 3 октября 2012 г. с. 137-145

10. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi sistemenində girov götürülmüş adamın tutulması / Материалы III Республиканской научно-теоретической конференции посвященной 90-летие Общенационального лидера Азербайджанского народа Гейдара Алиева «Актуальные проблемы юридической науки», Баку, 14-15 марта 2013 г., с. 196-200
11. Tamah motivləri ilə adam oğurluğunun cinayət-hüquqi qiymətləndirməsi məsələsinə dair // Материалы III Международной научно-практической конференции «Актуальные проблемы модернизации российского уголовного законодательства и практики его применения», Ярославль, 26-27 сентября 2013 г., с.12-14
12. Anti-korrupsiya hərəkətləri - cinayətkarlığa qarşı mübarizəsinin bir növü kimi // Сборник статей Международной научно-практической Интернет-конференции «Приоритетные направления предупреждения преступности на современном этапе», Нижний Новогород, 21марта 2013 г., с.44-53
13. Regional cinayətkarlığ - profilaktika obyektı kimi (xüsusi əlamətlər) / Сборник статей Международной научно-практической конференции «Актуальные проблемы криминологического исследования региональной преступности», Баку, 18 декабря 2013 г., с.100-104
14. Adam oğurluğuna görə cinayət məsuliyyətinin kriminoloji əsasları // Рубрики журнала «Ученые записки», Баку, январь-март 2014 г., с. 92-97



## РЕЗЮМЕ

Диссертация Турал Бахруз оглы Гаджиева «Ответственность за похищение человека по уголовному законодательству Российской Федерации и Азербайджанской Республики (компаративистское исследование)» на соискание ученой степени доктора философии по праву по специальности: 5611.01 – «Уголовное право и криминология; уголовно-исполнительное право» посвящена проведению комплексного сравнительно-правового исследования вопросов, касающихся уголовной ответственности за похищение человека по законодательству Российской Федерации и Азербайджанской Республики, и выработке на этой основе предложений по совершенствованию законодательства об ответственности за данное преступление, практики его применения, а также предложений по профилактике похищений человека.

В диссертационную работу входит введение, три главы, включающие восемь параграфов, заключение, библиография и приложения.

Во введении обосновывается актуальность темы диссертации, освещаются научная степень разработанности, объект и предмет исследования, методологическая основа, научная новизна, определяются её цели и задачи, основные научные положения выносимые на защиту, рассматриваются теоретическое и практическое значения исследования.

Первая глава диссертации называемая «Теоретические и криминологические основы уголовной ответственности за похищение человека» посвящена исследованию теоретических воззрений, имеющихся как в Российской Федерации, так и в Азербайджанской Республике, и и выработке на этой основе понятия похищения человека, а также исследованию сравнительных криминологических аспектов данного преступления в Российской Федерации и Азербайджанской Республике.

Во второй главе, называемой «Уголовно-правовая характеристика похищения человека по законодательству Российской Федерации и Азербайджанской Республики» затрагивается вопрос и высказывается авторская позиция относительно объекта и признаков, составляющих объективную сторону анализируемого преступного деяния. Кроме того, анализируются составляющие категории субъект похищения человека, а также внутреннего отношения виновного лицо к совершаемому им деянию, а также проводится обзор и дается крити-

ческий и сравнительный анализ обстоятельств, дифференцирующим ответственность за похищение человека в УК РФ и УК АР.

Третья глава, называемая «Специальные вопросы квалификации похищения человека, его отграничение от смежных составов» посвящена произведению сравнительно-правовое исследования отграничения похищения человека от незаконного лишения свободы по УК РФ и УК АР, и отграничению похищения человека от захвата заложника по законодательству Российской Федерации и Азербайджанской Республики. Кроме того, исследуются проблемные вопросы, связанные с освобождением от уголовной ответственности лица, которое добровольно освободило похищенного человека.

В заключение диссертации содержатся основные выводы и положения, сформулированные автором, а также предложения по совершенствованию действующего законодательства и практики его применения.

В приложениях даны образцы вопросов для интервью следователей и судей, а также таблицы данных, полученных в результате анкетирования указанных лиц.



**SUMMARY**

Tural Bahruz oglu Hajiyev Liability for kidnapping under the criminallegislationof the Russian Federation and the Republic of Azerbaijan (comparative study). The present thesisaims to perform a comprehensive comparative legal study of issues related to criminal liability for kidnapping under the laws of the Russian Federation and the Republic of Azerbaijan, and as a result development of proposals on improvement of legislation regarding liability for the offense, its implementation, as well as proposals for the prevention of kidnapping, on these basis. The thesis includes an introduction, three chapters, including eight paragraphs, conclusion, bibliography and appendices.

Introduction contains justification of relevance of the dissertation topic, highlights scientific degree of elaboration, object and subject of study, methodological basis, scientific novelty, defines its goals and objectives, principle scientific provisions submitted for academic presentation, considers theoretical and practical significance of the study.

The first chapter of the thesis named “Theoretical and criminological basis of criminal liability for kidnapping” is dedicated to the study of theoretical opinions, existing both in the Russian Federation and the Republic of Azerbaijan, and development on their basis of the concept of kidnapping, as well as study of comparative criminological aspects of the crime in the Russian Federation and the Republic of Azerbaijan.

The second chapter named “Criminal legal characteristics of kidnapping under the legislation of the Russian Federation and the Republic of Azerbaijan” address the issue and expresses the author’s position regarding the object and attributes constitutingthe objective side of theanalyzablecriminal offence. In addition, componental analysis of thecategory ofsubject of kidnapping, as well as inner relation ofguilty person to the committed offense is provided, along with an overview and critical and comparative analysis of the conditions differentiating liability for kidnapping in the Criminal Code of the Russian Federation and the Criminal Code ofthe Republic of Azerbaijan.

The third chapter named “Special issues in qualification of kidnapping, its differentiation from the adjacent formal crime components” is dedicated to comparative legal research of delimitation of kidnapping from unlawful deprivation of freedom, and delimitation of kidnapping from taking of hostages under the Criminal Code of the Russian Federation and the Criminal Code of the Republic ofAzerbaijan. It also studies problematic issues related to relief from criminal liability of a person who voluntarily freed a kidnapped person.

Conclusion of the thesis contains main findings and provisions set forth by the author, as well as proposals on improvement of the existing legislation and practice of its implementation.

The appendices contain examples of interview questions for investigators and judges, as well as tables of data obtained as a result of survey of the said persons.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**Турал Бахруз оглы Гаджиев**

# Ответственность за похищение человека по уголовному законодательству Российской Федерации и Азербайджанской Республики (компаративистское исследование)

**Специальность: 5611.01 - Уголовное право и криминология; уголовно-исполнительное право**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени
доктора философии по праву**

**Баку – 2014**